# mr. Cure PRF®

## Parafin əsaslı beton kür materialı

Məhsul kodu: 85.00.001










### Məhsul haqqında

**mr. Cure PRF®** parafin emulasiya əsaslı, təzə tökülmüş beton üzərinə tətbiq olunan, əmələ gətirdiyi film təbəqəsi ilə suyu betonun bünyəsində tutaraq optimum müqavimət artımı əmələ gətirən, sürətli qurumağın qarşısın alaraq səthdə olan çatları və rötre çatlaqlarının qarşısını alan kür materialıdır.

### Istifadə sahəsi:

- Hər növ sahə betonu
- Kanal və kanalet betonlarında
- Buxarlaşmanın yüksək olduğu hər növ hava şəraitində geniş beton səthlərə tətbiq olunur

### Üstünlükləri

- Torba, bitki yarpaqlarından hazırlanmış səbət və sulama kür yöntəmlərinə
- Günəş şüalarını əks etdirərək yeni betonda su itkisini azaldır
- Səthdəki ani qurumalara əngəl olaraq səthdəki çatlamaların qarşısın alır
- Daha möhkəm və tozsuz bir səth əmələ gətirir
- Daxili məkanlarda istifadəyə uyğundur
- Tətbiqi asandır, işçi xərclərini azaldır
- Mr.Cure PRF®-nin tərkibində həlledici maddə yoxdur

### Texniki göstəriciləri

| Məhsulun tərkibi | Mineral dolğular, sintetik qatqılar, toz polimer və xüsusi sement |
|---|---|
| Rəngi | Ağ |
| Sıxlığı | ~1,00 kq/litr |
| Quru vəziyyətdə görünüşü | Ağ-şəffaf, hamar |
| İstifadə müddəti | 2 saat |
| Su saxlama (ASTM C 309) | Keçirici |
| Quruma müddəti | 2 saat 45 dəqiqə |

+20$^0$C, 50% nisbi nəm şərtlərdə əldə edilmişdir.

### İstifadə təlimatı

Səthin hazırlanması;

mr. Cure PRF®, yeni tökülmüş betonun üzərinə homogen olacaq şəkildə püskürtülərək vəya rulon ilə rədbiq edilməlidir. mr. Cure PRF®, sahə, yol və döşəmə betonlarının masdarlanmış səthlərinə və qəlibli betonların, qəliblər söküldükdən sonra parlaqlığını itirmiş səthlərinə

tətbiq edilir.

## Sərfiyyat

Mr.Cure PRF®-nin ortalama sərfiyyatı 0,17-0,25 kq/m²- dır. Açıq havada və küləkli şəraitdə yüksək səviyəli kürləmənin əldə olunması üçün, ilk qat tətbiqinin ardından 6 saat ərzində ikinci qat tətbiq oluna bilər. Kölgədə olan daxili səthlərdə sərfiyyat azalır.

## Qablaşdırma

- 30 kq Plastik bidon
- 230 kq Dəmir bidon

## Saxlama şərtləri

Orta tempraturun +5⁰C-nin üstündə olduğu yerlərdə orijinal qablarında saxlanmalıdır. Məhsul donduğu halda, birbaşa isti istifadə etmədən otaq temperaturunda donu açılmalı və homojen hala gəlincəyə qədər qarışdırılmalıdır.

## Saxlama müddəti

Uyğun saxlanma şəraitində istehsal tarixindən etibarən 1 ildir. Açılmış qabların qapaqları təkrar bağlanaraq, son istifadə müddətinə qədər istifadə oluna bilər.

## Diqqət olunması lazımdır

- mr. Cure PRF®- nin betonun üzərinə püskürtülərək tətbiq olunması, sağlam bir forma əldə olunması üçün məsləhət görülür.
- Tətbiq olunmuş mr. Cure PRF®- nin təsir müddəti film qalınlığına, hava şərtlərinə, ultra-bənövşəyi şüalara məruz qalma dərəcəsinə görə və beton səthinin vəziyyətinə bağlı olaraq dəyişsə də beton üçün lazım olan suyun tikilinin içərisində qalmasını təmin edəcək müddət qədər təsirli olur.
- Sonradan kür tətbiq olunan səth üzərinə suvaq, boya kimi örtük tətbiq olunacaqsa səthdə qalan məhsul təzyiqli suyla yaxşıca təmizlənməlidir.
- Məhsul bərabər şəkildə yayılaraq hamar olmayan yerlər saxlanılmamalıdır.
- mr. Cure PRF®- nin rulon ilə incə bir təbəqə halında tətbiq olunması, köpüklənmənin yaranmasının qarşısın alar, əgər səhvliklə qalın təbəqəyə sürtüldüsə köpük əmələ gəlir, bir müddət sonra köpük yoxa çıxır bu zaman səth təkrar rulon ilə düzəldilməlidir. Eynicinsli (homogen) olmayan tətbiqlərdə səthdə rəng fərqlilikləri yarana bilər, bu fərqliliklər tətbiq müddətindəki günlər ərzində yox olacaqdır.

## Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik

Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

## Qablaşdırma

| | Məsul Kodu |
|---|---|
| 30 kq-lıq bidon | 85.30.002 |
| Tökmə | 85.00.001 |